**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**

**KOLLEGİYASI**

**QƏRAR**

**№**

**Bakı şəhəri** **09 iyul 2021-ci il**

**Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın 2021-ci il üçün Tədbirlər planının icrası haqqında**

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın4 iyun 2021-ci il tarixdə keçirilən iclasında Komissiyanın 2021-ci il üçün Tədbirlər Planı II nömrəli Protokola əsasən təsdiq edilmişdir.

Tədbirlər Planı üzrə tədbirlərin icrası, ümumilikdə nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi, habelə onların icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verilməsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə həvalə edilmişdir.

Tədbirlər planında əsas istiqamətlər qeyri-hökumət təşkilatların nəzdində fəaliyyət göstərən uşaq sığınacaqlarının ümumi vəziyyətinin təhlili; erkən uşaqlıq dövründə uşaqların inkişafının təmin edilməsi sahəsində tədbirlərin həyata keçirilməsi; məktəblilər arasında bədii qiraət müsabiqələrin keçirilməsi; təsviri sənətin müxtəlif növləri üzrə təlimlərin və tədbirlərin təşkili; “Uşaq Hüquqları Həftəsi”nin keçirilməsi; müharibədən zərər çəkmiş ailələrdən olan uşaqlara tibbi və psixoloji dəstək göstərilməsi; autizm spektr pozuntuları olan uşaqların müayinəsinə və müalicəsinə dəstək olmaq və cəmiyyətdə bu cür uşaqlara qarşı olan stiqma və stereotipləri aradan qaldırmaq məqsədilə müxtəlif layihələrin həyata keçirilməsi; erkən nikah hallarının qarşısının alınması məqsədilə

genişmiqyaslı maarifləndirilmə və təbliğat-təşviqat tədbirlərinin həyata keçirilməsi; “Azərbaycan Respublikasının vətəndaşları olan yetkinlik yaşına çatmayanların Repartasiyası Qaydaları”nın hazırlanması nəzərdə tutulmuşdur.

Fəaliyyət Planının 14-cü bəndinə əsasən onun uğurla həyata keçirilməsi üçün əlaqələndirici dövlət orqanı işçi qruplar yaradacaqdır. İşçi qruplar prioritet istiqamətlər üzrə tədbirlərin vaxtında və səmərəli icrasına məsul olacaqlar.

Yuxarıda qeyd olunanlardan irəli gələrək və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”nin 17-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın 2021-ci il üçünTədbirlər Planının icrası haqqında məlumat nəzərə alınsın.

**2.** Dövlət Komitəsi aparatının struktur bölmələri Tədbirlər Planının müvafiq bəndlərinin icrasını qeyd edilən icra müddətləri ərzində aşağıdakı qaydada təmin etsinlər:

**2.1.** Uşaq problemləri şöbəsi 4, 5, 6, 14-cü bəndlərin;

**2.2.** Hüquqi təminat şöbəsi 14-cü bəndin;

**2.3.** Regional mərkəzlərlə İş şöbəsi 5, 6, 8, 10-cu bəndlərin;

**2.4.** Ailə problemləri şöbəsi 11-ci bəndin.

**3.** Uşaq problemləri şöbəsi Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumatın təqdim olunmasını təmin etsin.

**4.** Kadr və kargüzarlıq şöbəsinin müdiri E.Qurbanlı Komitənin aidiyyəti şöbələrini bu Qərarın surəti ilə tanış etsin.

**5.** Qərarın icrasına nəzarət Komitənin sədr müavini Aynur Sofiyevaya və aparatın rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**